**UOT:069.**

# MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNƏ AİD EKSPONATLAR VƏ ONLARIN SƏRGİLƏNMƏ VƏZİYYƏTİ

***Cabbarova Elnarə Oktay qızı***
***ADPU-nun Şəki filialı***
***El_cabbarova1980@rambler.ru***

**Xülasə:** *Məqalədə - Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığı və qazandığı möhtəşəm tarixi zəfərin həm Respublikamızda həmdə Beynəlxalq aləmdə nümayiş etdirilməsində çox mühüm rol oynayan Milli Azərbaycan Tarixi muzeyinin bu sahədədə olan önəmli fəaliyyəti və.s.məsələlərə diqqət yetirilmiş, bu prosesə olan münasibət təhlil olunmuşdur.*

**Açar sözlər:** Milli Azərbaycan Tarixi muzeyi, 44 günlük Vətən müharibəsi, Vətən Müharibəsi Fondu, Anadır arzulara hər zaman Qarabağ adlı sərgi, şəhid, qazi, eksponatlar

**Ключевые слова:** Национальный музей Истории Азербайджана, 44-дневная Отечественная война, Фонд Отечественной войны, выставка «Карабах, шехид, ветеран», экспонаты.

**Keywords**: National Museum of Azerbaijan History, 44-day Patriotic War, Patriotic War Fund, exhibition called Karabakh, martyr, veteran, exhibits

**Giriş**:Müasir tariximizə qızıl hərflərlə yazılan və tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi - xalqımızın 30 illik həsrətinə son qoydu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Nəhayət ki, torpaqlarımız erməni işğalından azad edildi. Vətən müharibəsi xalqımızın həm hüquqi, həm də mənəvi haqqından doğan, beynəlxalq ədalətə söykənən reallığı, eyni zamanda, nəinki ölkəmizin vətəndaşlarının , eləcə də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların Vətən sevgisinin, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, milli birliyi möhkəmləndirmək işinə dönməz sadiqliyinin sınağı oldu. Vətən müharibəsi həmvətənlərimizin qəlbinin, ruhunun dərinliklərində öz oyanış vaxtını gözləyən monolit birliyə yol açdı, adi həyatda fərqinə varmadığımız, lakin Vətən torpaqları uğrunda ölüm-dirim mübarizəsi anında baş qaldıran mübarizlik və qəhrəmanlıq xüsusiyyətləri harda yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıya sirayət edərək onda vətənpərvərlik hisslərinin bir daha alovlanmasına, torpaqlarımızı mənfur düşmənlərdən hər an qorumağa hazır olduqlarını bir daha sübuta yetirdi.

Sözsüz ki, tarixi qələbənin böyük əhəmiyyəti və əvəzolunmaz yeri xalqımız tərəfindən həmişə yüksək qiymətləndiriləcək, tarixdə əbədi qalacaq və heç vaxt unudulmayacaqdır. Ən əsası isə, bu tarixi qələbəni bizə yaşadan vətən müharibəsində iştirak etmiş bütün əsgər və zabitlərimizə dərin bir minnətdarlıq hissi hər birimizin qəlbində əbədiyyən var olacaq. Vətənimiz naminə canlarından keçən şəhidlərimizin əziz xatirəsi daim yaddaşlarımızda yaşayacaq. Onların hər biri əsl qəhrəman, gələcək nəsillərə rəşadət və qorxmazlıq nümunəsidir. Bu məqsədlədə 2021-ci ildə yanvar ayında-AMEA Milli Azərbaycan Tarixi Muzeyində Vətən müharibəsində iştirak etmiş şəhid və qazilərimizə məxsus materialların toplanması, qorunması, tədqiqi və təbliği ilə məşğul olan Vətən Müharibəsi Fondu, həmin ilin mayın ayının 19-da isə Fondda qorunan eksponatlar əsasında “Anadır arzulara hər zaman Qarabağ” adlı sərginin birinci hissəsinin açılışı olmuşdurki, Azərbaycan muzeylərinin anası

hesab olunan Milli Azərbaycan Tarix Muzeyində xalqımızın 44 günlük vətən müharibəsinə aid eksponatların sərgilənməsi Azərbaycanın haqq səsini bütün beynəlxalq ictimaiyyətə çatdırmaq, xalqımızda şəhid və qazi olan həmvətənlərimizə dərin bir hörmət hissinin formalaşması, ən əsası isə hər bir Azərbaycanlı vətəndaşını vətənin tərəqqisi, müstəqilliyi və ərazi bütövlüyü naminə vətənpərvərliyə, fədakarlığa ruhlandırmaq baxımından müstəsna əhəmiyyət kəsb edir. Buna görədə bu mövzunun öyrənilməsi və işlənilməsi xüsusi aktuallıq kəsb edir.

**Mövzunun əsas məzmunu**

Azərbaycan tarixində bir çox şərəfli anlar olmuş, xalqımızın qürur mənbəyinə çevrilmiş hadisələr yaşanmışdır. Lakin Müzəffər Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun 44 günlük Vətən müharibəsindəki zəfəri, torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizdə xüsusi əhəmiyyətə malikdir. **[1 s,4].** Bu hadisənin tarixi əhəmiyyəti Möhtərəm prezidentimiz, Ali baş komandan İlham Əliyevin söylədiyi fikirlərdə daha aydın şəkildə görünür:

**“44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Bu tarix əbədi yaşayacaq. Çünki bu Qələbə tarixdə bənzəri olmayan qələbədir. Azərbaycan xalqı buna layiq idi və biz Qələbə əldə edərək, düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik, doğma Şuşamızı azad etdik...”** Bu fikirlər tariximizin şanlı səhifələrinə qızıl hərflərlə həkk edildi. **[2]**

Xalqımız şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edir. Vətənin igid oğulları heç bir zaman işğal faktı ilə barışmamış, işğalçılara boyun əyməmiş, torpaqlarımızın azadlığı uğrunda ölüm-dirim mübarizəsi aparmışlar. 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsi xalqımıza xas olan bu xüsusiyyəti qabarıq şəkildə nümayiş etdirməklə tariximizə ən şanlı, parlaq səhifə kimi daxil oldu.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Milli Elmlər Akademiyası düşmənə qarşı mübarizədə səfərbər oldu və hərbi əməliyyatlar dövründə ordumuza maddi dəstəyini əsirgəmədi. Xüsusilədə AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları təmas xəttində yaşayan həmvətənlərimizə ianələri ilə yanaşı, humanitar yardımlar (geyim, qida, məişət əşyaları və s.) da yolladılar. Muzeyin əməkdaşları müharibə dövründə distant keçirilmiş beynəlxalq konfranslarda, müxtəlif sosial şəbəkələrdə və forumlarda erməni təcavüzkarlığı, dinc həmvətənlərimizə qarşı qadağan olunmuş raketlərlə hücumlar haqqında dünya ictimaiyyətini məlumatlandırdılar. Milli Azərbaycan Tarixi Muzeyi ordumuza dəstək durmaqla yanaşı, ideoloji işin təşkil olunmasında Ali Baş Komandanın siyasi kursunu əldə rəhbər tutub.

Vətən müharibəsi torpaqlarımızın azad edilməsi ilə başa çatdıqdan sonra döyüşlərdə iştirak edən və şəhid olan həmvətənlərimizin tanıdılması, onlar haqqında məlumatların toplanması və şəxsi əşyalarının yığılaraq gələcək nəsillərə ötürülməsi Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları üçün prioritet məsələlərdən birinə çevrildi. Bu münasibətlə Milli Azərbaycan Tarixi Muzeyi şəhidlərimizə məxsus materialların toplanmasına başladı. Qısa müddət ərzində muzeyin müxtəlif şöbə və fondlarının əməkdaşları sosial şəbəkədə əhaliyə müraciət etdilər və eləcə də ölkəmizin müxtəlif bölgələrindən olan şəhidlərimizə aid şəxsi əşyaların, hərbi geyimlərin, sənədlərin, fotoların və s. toplanması işinə başladılar. Muzeyə daxil olan materialların çoxluğu və müxtəlifliyi Vətən Müharibəsi Fondunun yaradılması zərurətini ortaya qoydu. Bu baxımdan muzeyin Elmi şurası muzeydə tarixi qələbəmizi əks etdirən bu materialların toplanması, qorunması, öyrənilməsi və təbliği üçün yeni fondun yaranması ilə bağlı mühüm qərar verdi. **[ 3]** Beləliklə, Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi zəfərin nümayiş

etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə 2021-ci ilin yanvar ayında Azərbaycan Tarixi muzeyində Vətən və ideoloji vəsaitlər də daxil edilmişdir. Hazırda 100-dən artıq inventarı olan Vətən Müharibəsi Fondu yeni materialları qəbul etməkdədir. Fondda yer alan materiallar Birinci Qarabağ müharibəsini, 2016-cı ilin Aprel, 2020-ci ilin Tovuz döyüşlərini və 44 günlük Vətən müharibəsini əhatə edir. Azərbaycanın Milli Qəhrəmanları general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, polkovnik Şükür Həmidov və Çingiz Qurbanova məxsus əşyalar və fotolar mühafizə olunur.

Vətən Müharibəsi fondunun əsas fəaliyyəti I və II Qarabağ müharibəsinə aid tədqiqatçılara fond materialları ilə kömək etmək, elmi-publisistik məqalələr , kataloqlar, kitablar və broşürlər tərtib etməkdir. Fondun digər fəaliyyəti Vətən müharibəsinə aid sərgilərin təşkilndə iştirak etməkdir. Vətən müharibəsində xüsusi xidmətləri olan Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, Dövlət Sərhəd Xidməti, Minatəmizləmə Agentliyi, Müdafiə Sənayesi Nazirliyi və digər qurumların şəxsi heyətlərinin geyim növləri, ləvazimat nümunələri, tədris və ideoloji vəsaitləri də fondda yerləşdirlib”. Fonda daxil olunan eksponatların arasında Azərbaycan ordusunun torpaqlarımızın azad edilməsi zamanı erməni silahlılarından hərbi qənimət kimi götürdükləri nümunələr də var. Bu hərbi qənimətlər Dövlət Sərhəd Xidməti və Dövlət Təhlükəsizlik Xidmətinin xüsusi təyinatlıları tərəfindən 44 günlük savaşda düşmən mövqelərinin darmadağın edilməsindən sonra ələ keçirilmişdir. Belə qənimətlərin fondda olması və onların gələcək tədqiqatlara cəlb edilməsi, eləcə də sərgilərdə nümayişi ordumuzun qüdrətinin göstəricisidir. Eyni zamanda 250 şəhidimizə aid materiallar fonda daxil edilib. Ümumilikdə, 2 mindən çox material burada inventarlaşdırılıb. Bu istiqamətdə işlər davamlı şəkildə aparılır. Milli Azərbaycan Tarixi Muzeyi tərəfindən həyata keçirilən bu və ya digər sərgilər tariximizin müxtəlif dövrlərinin təbliğatı üçün xüsusi əhəmiyyət daşıyır. Odur ki, adı çəkilən fondun materiallarının gələcək sərgilərdə nümayiş etdirilməsi hərb tariximizlə yanaşı, müxtəlif televiziya layihələrinin və sənədli filmlərin çəkilməsində etibarlı mənbə rolunu oynayacaq. Müxtəlif dövri mətbuat səhifələrində şanlı qələbəmizin təbliğatı istiqamətində Vətən Müharibəsi Fondunun özünəməxsus rol oynayacağı şübhəsizdir.

Milli Azərbaycan Tarixi Muzeyindəki digər fondlar kimi, yeni yaradılmış Vətən Müharibəsi Fondunun materialları da elmi-tədqiqat işlərinə cəlb ediləcəkdir. Torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizə aid materiallar əsasında elmi məqalələr, kataloqlar, broşürlər, kitabçalar və s. yazılması üçün də bu fond elmi resurslara malik olacaqdır. Fondun materialları hərb tarixi, hərbi jurnalistika və Qarabağ müharibəsinin tədqiqatı ilə məşğul olanlar üçün qiymətlidir.

Bundan başqa, 2021-ci il mayın ayının 19-da isə Fondda qorunan eksponatlar əsasında “Anadır arzulara hər zaman Qarabağ” adlı sərginin birinci hissəsinin açılışı olmuşdur. **[ 5]** Azərbaycanın Vətən müharibəsində parlaq qələbəsi və torpaqlarımızın azad edilməsinə həsr olunmuş sərgi döyüş iştirakçılarına məxsus olmuş eksponatlar əsasında qurulub. Açılış tədbiri karantin şəraitini nəzərə alaraq məhdud sayda iştirakçı ilə təşkil edilib. **[ 6]** Tədbiri muzeyin baş direktoru, akademik Nailə Vəlixanlı açaraq qeyd edib ki, sərginin keçirilməsində məqsəd Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsidir.

Sərgidə 2020-ci ilin iyulunda baş vermiş Tovuz döyüşlərinin qəhrəmanları general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev və digər qəhrəmanlarımız Anar Əliyev və Adil Əfəndiyevə məxsus şəxsi əşyalar qorunur. **[ 7]** Həmçinin, sərgidə Vətən müharibəsinin 101 şəhid və qazisinin əşyaları nümayiş olunur. Burada hərbi uniforma, ləvazimat, qəlpə və

güllələr, şəxsi sənədlər, fotoşəkillər göstərilir. Sərginin hər bölməsində müvafiq informasiya panelləri yerləşdirilib. Sərgidə, Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizik Xidməti, Dövlət Sərhəd Xidməti, DİN Daxili Qoşunları, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Mina Təmizlənmə Agentliyi tərəfindən təqdim edilmiş eksponatlar da nümayiş olunur.

Ümumilikdə sərgidə 30 vitrində 557 eksponat, 12 informasiya-məlumat paneli, 7 iriölçülü banner, 204 ədəd fotoşəkil nümayiş olunur. Həmçinin "Anadır arzulara hər zaman Qarabağ" sərgisinin tərkib hissəsi kimi təşkil olunmuş "Ermənistanın dövlət terrorizmi azərbaycanlı fotoqrafların obyektivində" adlı fotosərgidə 44 günlük müharibə dövründə Azərbaycanın dinc şəhər və kəndlərinə atılmış raket-artilleriya zərbələrinin nəticələri, eləcə də 30 ilə yaxın müddətdə işğal olunmuş ərazilərdə həyata keçirilmiş siyasəti nümayiş etdirən 7 fotoqrafın çəkdiyi 50 ədəd fotoşəkil, Gəncə və Bərdəyə atılmış raket zərbələrini nümayiş etdirən onlarla eksponat, 4 iriölçülü diorama nümayiş olunur. May ayından başlayaraq muzeyin İnnovasiyalar və təhsil proqramları şöbəsi tərəfindən "Anadır arzulara hər zaman Qarabağ" adlı sərgi çərçivəsində "Xarıbülbül - Qələbə rəmzi" adlı silsilə ustad dərsi keçirilib. Adıçəkilən şöbənin əsas fəaliyyət istiqamətlərindən biri gənclərin vətənpərvərlik tərbiyəsidir. Bu məqsədlə Milli qəhramanlara, şəhidlərə həsr olunmuş tədbirlər silsilə xarakter alıb. Fevralın 9-da Zoom platformasında məktəblilərlə birgə "Mübariz İbrahimov Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzidir", aprelin 7-də onlayn formatda 2016-cı il - Aprel döyüşlərinə, iyunun 9-da Vətən müharibəsi şəhidi Elvin İslamovun anım gününə həsr olunan, sentyabrın 29-da yenə də Vətən müharibəsindən bəhs edən, Gəncə və Bərdə məktəblilərinin iştirakı ilə tədbir keçirilib. İl ərzində şöbənin elmi işçisi, "Gənc muzeyşünaslar və muzeysevərlər klubu"nun rəhbəri Sahibə Ələkbərovanın klubun üzvləri ilə "Tarix yazan qəhrəmanlar" layihəsi çərçivəsində şəhid Şəhriyar Qasımovun, Yaqub Yaqubzadənin, Tural Abdullayevin ailələri ilə keçirdiyi görüşlər də yaddaqalan olub. Muzeydə may ayının 18-dən başlayaraq, "Yolumuz Qarabağadır! Qarabağ Azərbaycandır!" layihəsi çərçivəsində "Gənc muzeyşünaslar və muzeysevərlər klubu"nun üzvləri Laçın, Füzuli, Cəbrayıl, Qubadlı, Xocalı, Ağdam tarix-diyarşünaslıq muzeylərini, eləcə də Mahrızlı kəndində fəaliyyət göstərən Rahib Məmmədov adına Ağdam rayon Döyüş Şöhrəti Muzeyini ziyarət etməklə, işğaldan sonrakı illərdə adıçəkilən mədəniyyət müəssisələrinin işləri ilə yaxından tanış olmuşlar ki, bütün bunlar həmdə gənc muzeyşünasların gələcək fəaliyyətlərində mühüm amillərdən hesab edilir.

2021-ci il noyabrın 4-də AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində "Zəfər günü" münasibətilə "Anadır arzulara hər zaman Qarabağ" adlı sərginin ikinci hissəsinin açılışı keçirilib. **[ 8]** Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra tədbir iştirakçıları ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Sərgidə Vətən müharibəsinin 104 şəhidinin və 10 qazisinin əşyaları nümayiş olunur. Burada hərbi uniforma, ləvazimat, qəlpə və güllələr, şəxsi sənədlər, fotoşəkillər göstərilir. Sərginin hər bölməsində müvafiq informasiya panelləri yerləşdirilib. Sərgidə Azərbaycan istehsalı olan "İti qovan" pilotsuz uçuş aparatının orijinal ölçülü maketi qurulub. Vitrinlərdə Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizik Xidməti, Dövlət Sərhəd Xidməti, DİN Daxili Qoşunları, Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən təqdim edilmiş eksponatlar da nümayiş olunur. Sərgidə, həmçinin Ermənistan ordusundan qənimət götürülmüş təltif nişanları, hərbi geyim və ləvazimatlar göstərilir. Ümumilikdə 30 vitrində 350 eksponat, 12 informasiya-məlumat paneli, 7 iriölçülü banner, 204 ədəd fotoşəkil sərgilənir.

**Nəticə**

Beləliklə, mövzu üzərində işlədikdən sonra bir daha o nəticələrə gəlirikki, müasir tariximizə qızıl hərflərlə yazılan və tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Qazandığımız möhtəşəm zəfər xalqımızın çoxəsrlik tarixinin ən şərəfli dövrü kimi hər zaman, əbədi olaraq xatirələrdə və salnamələrdə yaşayacaqdır. Xalqımız şanlı tariximizlə, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edir. Çox doğru qeyd edilibki "Tarixi insanlar yaradır, muzeylər isə onu qoruyur". Bu məqsədlə də Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə 2021-ci ildə yanvar ayında AMEA Milli Azərbaycan Tarixi Muzeyində Vətən Müharibəsi Fondu, həmin ilin mayın ayının 19-da isə Fondda qorunan eksponatlar əsasında "Anadır arzulara hər zaman Qarabağ" adlı sərginin birinci hissəsinin açılışı xalqımızın həm ictimai həmdə mədəni həyatında çox mühüm, əlamətdar hadisələr kimi xarakterizə oluna bilər. Beləki, Azərbaycanda muzey işinin inkişafında, muzeylərin yaradılmasında əvəzolunmaz rol oynayan Azərbaycan muzeylərinin anası hesab olunan Milli Azərbaycan Tarix Muzeyində xalqımızın 44 günlük Vətən müharibəsinə aid eksponatların sərgilənməsi Azərbaycanın haqq səsini bütün beynəlxalq ictimaiyyətə çatdırmaq, xalqımızda şəhid və qazi olan həmvətənlərimizə dərin bir hörmət hissinin formalaşması, ən əsası isə hər bir Azərbaycanlı vətəndaşını vətənin tərəqqisi, müstəqilliyi və ərazi bütövlüyü naminə vətənpərvərliyə, fədakarlığa ruhlandırmaq baxımından müstəsna əhəmiyyət kəsb edir.

***Ədəbiyyat***

1."İlham Əliyev zəfəri - xilaskarlıq missiyası". Yada düşdü.№ 3(44), Oktyabr, Noyabr-Dekabr 2021-ci il buraxılışı. Ədəbi-bədii, Nostolji jurnal.səh4-11.

2."Tarixi.muzeylər.yaşadır".https://www.azerbaijannews.az/az/posts/detail/1641847348

3."Vətən Müharibəsi Fondu şanlı tariximizin təbliği və tədqiqi istiqamətində". https://science.gov.az/az/news/open/16317

4."Milli Azərb. Tarixi Muzeyinin Vətən Müharibəsi Fondu". https: //az.wikipedia. org/wiki/

5."Anadır arzulara hər zaman Qarabağ "adlı sərginin birinci hissəsinin açılışı olmuşdur. https://science.gov.az/az/news/open/16956

6."Muzeydə şəhid və qazıların ailələri ilə görüş keçirilib". https://nenp/ facebook. com/azhis torymuseums/posts/5685778624796815/

7."Bu gün II Vətən müharibəsi qəhrəmanları Anar Əliyev və Adil Əfəndiyevin ölümündən bir il ötür". http:// azhistorymuseum.gov.az/az/news/3621

8."Tarix Muzeyində "Anadır arzulara hər zaman Qarabağ" adlı sərginin ikinci hissəsinin açılışı olub". https://science.gov.az/az/news/open/18641

## ЭКСПОНАТЫ, СВЯЗАННЫЕ С 44-ДНЕВНОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНОЙ, И СТАТУС ИХ ЭКСПОЗИЦИИ В НАЦИОНАЛЬНОМ МУЗЕЕ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

***Джаббарова Эльнара Октай кызы***

***Резюме***

В статье освещается важная деятельность Национального музея истории Азербайджана, играющего очень важную роль в демонстрации беспримерного героизма азербайджанского народа в 44-дневной Отечественной войне и одержанной им величественной исторической победы, как в нашей Республике, так и в международ ном мире обращалось внимание, и анализировалось отношение к этому процессу.

## EXHIBITS RELATED TO THE 44-DAY PATRIOTIC WAR AND THEIR DISPLAY STATUS IN THE NATIONAL MUSEUM OF AZERBAIJAN HISTORY

***Jabbarova Elnara Oktay***

***Summary***

In the article, the important activities of the National Museum of Azerbaijan History, which plays a very important role in demonstrating the unparalleled heroism of the Azerbaijani people in the 44-day Patriotic War and the magnificent historical victory they won, both in our Republic and in the international world, were paid attention to, and the attitude towards this process was analyzed.

***Rəyçi:t.ü.f.d.Vüsal Baxışov***
***ADPU-nun Şəki filialı, Humanitar fənlər kafedrasının 29 noyabr 2022-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olma tarixi 02 dekabr 2022-ci il***

**UOT:94**

## XX ƏSRİN 60-CI İLLƏRİNDƏ ABŞ-IN LATIN AMERİKASI REGİONUNDA SİYASƏTİNƏ DAİR TARİXŞÜNASLIQ

***dosent Hüseyn Bəxtiyarlı***
***Gəncə Dövlət Universiteti***
***Huseyn.bextiyarli@bk.ru***

**Xülasə:** *Məqalədə dünyanın aparıcı dövləti olan ABŞ-ın Latın Amerikası regionunda iqtisadi və siyasi fəaliyyətinin tarixşünaslıq məsələləri araşdırılmışdır. Qeyd edilmişdir ki, göstərilən məsələlər müxtəlif əsərlərdə bu və ya digər formalarda öz tədqiqini tapmışdır. Bu baxımdan Azərbaycan dilində nəşr edilmiş əsərlər sırasında M.Qasımlı və S. Mustafayeva tərəfindən nəşr edilmiş dərslikləri xüsusi qeyd etmək olar. Həmin dərsliklərdə XX əsrin 60-cı illərində ABŞ-ın reginona müdaxiləsi və bunun nəticəsi olaraq Karib böhranının baş verməsi, ABŞ-SSRİ ziddiyyətlərinin ən kritik həddə çatması ciddi şəkildə əsaslandırılmışdır. Eyni zamanda rus müəlliflərinin əsərlərində də problem araşdırlmış və müəlliflər tərəfindən münasibət bildirilmişdir. Müəlliflər göstərirlər ki, XX əsrin 60-cı illəri beynəlxalq aləmdə bir çox hadisələrlə yadda qalsa da, bunların sırasında Sovet-ABŞ münasibətləri mühüm məsələlər sırasında idi. ABŞ-ın regiona müxtəlif pöroqramlarla müdaxiləsi SSRİ-nin maraqlarına uyğun gəlmədiyinə görə dünyanın bu iki super dövləti arasında münasibətlər daha gərgin xarakter almağa başladı. Bu da nəticə etibarı ilə beynəlxalq gərginliyi dünya müharibəsi həddinə çatdırdı. Bunun qarşısını almaq məqsədilə BMT Baş katib səviyyəsində problemə müdaxilə etməyə başladı. Çətinliklə də olsa gərginlik aradan qaldırıldı və dövlətlərarası münasibətlər bərpa olundu.*

**Açar sözlər:** Latın, Region, Siyasət, İqtisadi, Tarixşünaslıq
**Ключевые слово:** Латинский, Область, Политика, Экономика, Историография
**Key words:** Latin, Region, Politics, Economics, Historiography